Nizaminin milli kimliyi və Vətəni

“O böyük Azərbaycan şairi, Türk oğlu Türkdür”

Abbaseli Əhmədoğlu

(əvvəli ötən sayımızda)

Bu dəyərləri qorumaq üçün gələcək nəsillərimizi birləşdirib güclü bir millət olduqlarını hər zaman doğrulda bilsin deyə Nizami kimi bilgin babalarımızın miras qoyduğu zəngin dəyərlər vardövləti dünyanın başqa heç sərvəti ilə ölçülüb tutuşdurulası dəyil. F. Fanon da uyqarlığı (mədəniyyəti) bir xalqın ruhunun gözəlcəsinə bəyan edilməsi bilir. Nizami Azərbaycan xalqının ruhunu ən estetik biçimdə dünyaya, eləcə də öz xalqına çatdırmağa çalışıb. Bu araşdırma da o əzəmətli milli-mənəvi mirasın milli kimliyini əsərin öz içindən araşdırıb yeni nəsillərə çatdırmağı milli-mənəvi bir vəzifə olaraq qələmə alınıbdır.

Əldəki araşdırmada “Xəmsə”nin mətnindəki izlərdən Nizaminin milli kimliyini aydınladan izlər təqdim olunacaq. Nizami hər mənzuməsini Allahın adı hörmətinə başlayır. İkinci yerdə İslam peyğəmbəri Məhəmmədin hörmətinə söylədiyi sevgi dolu söyləmələr gəlir. Maraqlısı budur ki hər beş kitabının başında tam sevgi və sayqı ilə anıb meracından söz açdığı peyğəmbəri də yeri gəldikdə Türk adlandırır. Örnək üçün peyğəmbərin Xosrov Pərvizə yazdığı namə (məktub) bölümündəki bu beytlərdə:

«زهی پیغمبری کز بیم و امید قلم رانده بر افریدون و جمشید
زهی ترکی که میر هفت خیل است ز ماهی تا به ماه او را طفیل است
زهی بدری که او در خاک خفتاست زمین تا آسمان نورش گرفتاست.»

“Firudin ilə Cəmşidi qorxudub ümid vermək üçün qələm çalan peyğəmbərə eşq olsun!

Yeddi millətin soltanı olan Türkə eşq olsun! Balıqdan tut aya, tüfeylisi olana eşq olsun!

Torpaqda yatan on dörd gecəlik aya eşq olsun! Nuru Yerdən göyə doldurmuşa eşq olsun!”

Nizami nə vaxt gözəlliyə, kamala, sevimliliyə işarə etmək istədikdə – istər bir insan olsun, istər təbiətdə – işarə etdiyi gözəli “Türk” adlandırır. Örnək üçün:

«ترک سمن خیمه به صحرا زده ماهچه خیمه به ثریا زده»

Yaz fəslində “Yasəmən” ağacı qədimlərdən Azərbaycandakı evlərin geniş həyətlərinin bəzəyi idi. Çox gözəl iyi olan bu gül ağ da olar bənövşəyi də. Nizami bu gözəl istiarədə belə deyir: “Türk yasəmən çölə xeymə (çadır) vurub, sankı aypara Sürəyya burcunda xeymə vurub!” Eyni yerdə yazır:

«هندوک لاله و ترک سمن سهل عرب بود و سهیل یمن.»

“lalənin hinducasıyla Türk səmən (yasəmən) Ərəbin dəyərsizidir, Yəmənin ayı.”

Ümumilikdə Nizami qaraşın insanların gözəlliyinə, yarın ay kimi ağ üzündə qara xallara işarə etmək istəyəndə “hindu” istiarəsini işlədir. İkinci istiarədə yasəmən gülünü aya bənzətmək ilə çox bədii bir istiarə yaradır.

Nizami Türkü ədalətin simgəsi bilir. Başqa sözlə, adil olmayan Türk, Türk dəyil. Səlcuqilər sülaləsi, Məlik şahın oğlu, Sultan Sancar hökuməti vaxtı içib sərxoş olmuş bir darqa bir qarı nənəyə “Gecələr sənin evini qoruyan kimdir?” bəhanəsi ilə evinə saldırıb qarını təpik ilə vurub çölə salır. Qarı nənə bu zülmü Sultan Sancara çatdırıb Sultanı beləcə tənqid edir:

«دولت ترکان که بلندی گرفت مملکت از داد پسندی گرفت
چون که تو بیدادگری پروری ترک نه‌ای، هندوی غارتگری!»

“Türklərin dövləti ucalan vaxtda Məmləkət ədalət ilə bəyənilər oldu.

Sən ki bir zalımı becərdirsənsə,

Türk dəyilsən, bir çapqınçı Hindusan!”

Sultan sancar ilə qarı nənənin danışığı nağılında Nizami şer dili ilə Platonun “Cumhur/-Respublika”, Balasağunun “Qutadğubilik”, Farabinin “Mədinə-yi Fazilə əhlinin düşüncələri” kimi kitablarda olan Hökumət fəlsəfəsinin bölümlərindən birini nəzmə çəkib öz düşüncəsini irəli sürür. Yuxarıda gətirdiyimiz iki beyt o vaxtın siyasi düşüncəsinə görə yorumlanarsa, çox önəmli həqiqətləri alana gətirəcək. Birinci beytdə Səlcuqların hökumətini xalqın dili ilə ədalət yayan türk dövləti bildirir. Sıradan bir vətəndaş imperatoru tənqid edə bilirsə, demək, hər hökumətdə daima bəzi iş adamlarının alçaqlığına baxmayaraq, o hökumətdə ədalətin, eləcə də demokrasinin hökm sürdüyü aydındır. İkinci beytdə xalqın nümayəndəsi kimi çıxış edən qarı nənə adil olmayanı Türk yox, çapqınçı Hindu bilir. Hinduları soyqunçu, çapqınçı, oğru tanıyan düşüncəni Nizami başqa neçə yerdə də birbaşa yaxud dolayısı istiarə ilə ayıdır (bəyan edir). Örnək üçün hacıyla sufinin nağılında həccə gedən adam ev-eşiyini əmin bildiyi bir sufiyə tapşırıb yola düşür. Hacı Kəbə ziyarətindən qayıtdıqda evi talanmış görüb sufinin başına gedib əmanət tapşırdıqlarını geri istəyir.

«حاجی ما چون ز سفر باز گشت کرد بر آن هندوی خود ترکتاز»

Sufi isə hacının var-yoxunu vurub daşa, çıxıb başa. Boynuna aldıqdan sonra hacıdan bağışlanmaq istəyir. Amma eyni halda hacı kimi saf insanlara belə bir dərs verir:

«غارتی از ترک نبردست کس رخت به هندو نسپردست کس»

“Heç kimsə bir Türkdən soyqun görməyib ev-eşiyin Hinduya tapşırmayıb.”

Bu beyt Nizaminin yaşadığı vaxtdakı xalqın Hindulara olan münasibətindən başqa eyni halda şairin öz Türk kimliyinə olan olumlu münasibətini yaxud təəssübünü də açıqlayır. Ayrı bir yerdə Nizami Hinduların oğru olduqlarını daha sərtcəsinə ayıdır:

«گر انجیرخور مرغ بودی فراخ نمانادی یک انجیر بر هیچ شاخ
دو هندو برآید ز هندوستان یکی دزد باشد یکی پاسبان.»

“Əncir quşu buraxılsa idı tam özbaşına, bir əncir də qalmazdı heç butada.

“İki Hindu Hindistandan gələrsə, biri oğru olar biri gözətçi.”

Şərəfnamə kitabında İsgəndər Hindistana qoşun çəkib ələ keçirtdikdən sonra Hindistan Şahı barış üçün İsgəndərə dörd hədiyyə verir: 1. Öz qızını 2. İçməklə şərabı qurtulmayan yaqut bir qədəh 3. Bir filosof 4. Bir bacarıqlı həkim. Nizami Hind gözəlini bədii biçimdə beləcə tərifləyir:

«مهی ترک رخساره، هندو سرشت ز هندوستان داده شه را بهشت
نه هندو که ترک خطایی به نام به دزدیدن دل چو هندو تمام!»

“Türk görkəmli bir ay, Hindu təbiət

Hindistandan şaha verilmiş cənnət

Xatay Türküdür bu, demə bir Hindu

Ürək oğurlamaqda tam bir Hindu.”

Nizami Hindulara, eyni halda Türklərə olan münasibətini hər iki beytdə də bədii istiarələr və bənzətmələrlə aydınladır. Burda da gözəlliyi Türklərin, oğruluğu Hinduların özəlliyi olduğu fikrini irəli sürür.

Hər nədən daha önəmli olan Nizaminin bütün yaradıcılığında dərindən sevib saydığı şəxsiyyətləri də Türk adlandırmasıdır. O şəxsiyyətlərdən ən başda gələn, mərkəzi Bərdə şəhəri olan Ərmən xanlığının – Nizamının dili ilə desək, şahlığının – şahı, “Məhin Banu” ayamasıyla ad qazanmış Səmira xanımın qardaşı qızı Şirindir. Yunan mifolojisində “vəfa”nın simgəsi olan Penelope Troy savaşında dənizlərdə yoxa çıxmış əri, Odisseyusun yolunu gözlədiyi üçün Homerin sevimli qadın obrazına dönür. Ancaq Xosrov-Şirin kitabındakı Şirin vəfalı olduqdan başqa daha çox sevgi və məhəbbətin ustadı kimi yalnız Sasanilər şahı Xosrov Pərvizə yox, bütün bəşəriyyətə həqiqi sevginin, vəfanın, yoldaşlığın ustadı olaraq çıxış edən bir obrazdır. Bu mənzum tragediya əslində çox dəyərli bir romandır, ancaq Nizami özü vurqladığı kimi əsərini nəzm dili ilə yazmasına üstünlük verib o yolu bilərək seçibdir.

Nizami fəxr etdiyi vəfa simgəsi, Şirini bədii bir abartmada (mübaliğədə) beləcə tərifləyir:

«چنان در سر گرفت آن ترک طناز کزو خسرو نه، کیخسرو کشد ناز.
چو کرد ار دل ستاند، سینه جوید گرش خانه دهی، گنجینه جوید.»

“O nazlı Türk elə tutdurdu nazı Xosrov qalsın, Keyxosrov çəkər nazı.

“Qurd tək ürək istərsə, bağır alar evi versən ona, dəfinə arar.”

Bu iki beytdə şair Şirinin Türk olduğunu rəsmi biçimdə vurqulayıb onun milli kimliyini açıqlayaraq Xosrovları, Keyxosrovları onun ayağı altına salır.

Şirin isə öz kimliyini Xosrov Pərvizə yazdığı namədə beləcə açıqlayır:

«نه ترک این سرا، هندوی این بام شهنشه را چنین دادست پیغام
که گر مهمان مایی ناز منمای به هر جاکت فرود آرم فرود آی.»

“Bu sarayın Türkü yox, bir Hindusu

Padşaha beləcə bir sav veribdir

Bizim qonağımızsan’sa, naz etmə,

Harada əmr etsəm, orada otur.”

Şirində olan özsayqı, özsevgi, siyasət, qoçaqlıq, dikbaşlılıq ikinci beytdə özünü aydıncasına görsədir (göstərir). Xosrov Pərvizə yerini bildirməkdən çəkinmir. Yenə Şirin bir başqa yerdə bir daha öz milli kimliyini qaragöz Türk olaraq bildirir:

«جهانداران که ترکان عام دارند به خدمت هندویی بر بام دارند
من آن ترک سیه چشمم بر این بام که هندوی سپیدت شد مرا نام»

“Türklərin çoxlu dünya fatehi var qulluq’çün damlarında Hidusu var.

Bu dam üstə o qaragöz Türkəm mən ki adım ağ Hindun olubdur sənin.”

Üçüncü yerdə Şirin Türklüyünə öyünərək Xosrov Pərvizə belə yazır:

«هنوزم هندوان آتش پرستند هنوزم چشم چون ترکان مستند»

“Hələ də Hindular oda tapınır hələ də gözlər sərxoş Türklər kimidir.”

Ardıca Xosrov Pərvizə yazdığı namədə (məktubda) Şirin özgüvənc ilə özsayqısını milli kimliyi ilə bir arada gətirir:

«به غمزه گرچه ترک دلستانم به بوسه دل‌نوازی نیز دانم
زبس کآورده‌ام در چشمها نور ز ترکان تنگ‌چشمی کرده‌ام دور.»

“Naz etməkdə, baxmayaraq, ürəklər fəth edən Türkəm,

Öpüş ilə ürək oxşamağı da mən bilirəm.

O qədər gözlərə nur gətirmişəm

Türklərdən xırdagözlülüyü uzaqlaşdırmışam.”

Nizami Şirinin dili ilə nazqəmzəsi ilə ürəkləri fəth edən Şirinin Türk olduğunu bir daha vurqulayaraq Çin Türklərinin (Türküstandankı Türklərinin) gözlərinin kiçik badam kimi olduğuna istiarə edərək Türk millətinin başqa gözəlliklərinə işarə edir.

Bir ayrı namədə Şirin bir daha öz milli kimliyini Ərəb dilini, başqa sözlə özgə dilləri bilən savadlı Türklərdən olduğunu vurqulayaraq bildirir:

«نه آن ترکم که من تازی ندانم شکن کاری و طنازی ندانم.»

“Ərəb dili bilməyən Türk dəyiləm

Utandırmaq, naz etməyi bilməyən Türk dəyiləm.”

Nizami Xosrov-Şirin mənzuməsində 38 yerdə “Türk”, “Türklər”, “Türküstan” sözcüklərini işlədir.

Leyli-Məcnun mənzuməsində Ərəb ellərindən olan Leylini də Nizami ürəkləri çalmaqda Türk təqdim edir:

«ماه عربی به رخ نمودن ترک عجمی به دل ربودن»

“Üzünü görsətməkdə Ərəb ayı

Ürək çalmaqdasa bir “əcəm” Türkü”

Məcnunun atası leylini Məcnun üçün istəməyə gedib əli boş qayıdır, Məcnun da Leylinin eşqində ah-nalə edərək iki yerdə “Türk” sözcüyünü işlədir:

«ترکانه ز خانه رخت بر بست در کوچگه رحیل بنشست»

“Türklər kimi evdən baş alıb getdi

Ayrılığın köç yerində oturdu.”

«ترکی که شکار لنگ اویم آماجگه خدنگ اویم.»

“Bir axsaq ovu olmuşam o Türkün

Oxunun nişan yeriyəm o Türkün.”

Leylinin halının tərifində Nizami belə yazır:

«می‌کرد به وقت غمزه سازی بر تازی و ترک ترکتازی»

“Nazlanıb qəmzə edəndə, Ərəbə də

Türkə də Türk kimi sinə gərərdi.”

Leyli bostana tamaşaya çıxanda ərəblərin arasında məskən salmış Türklərin Obasına tuş gəlir. Bugünkü İraqın quzey bölgəsində yerləşən Türkmənlər Ərəb ləhcəsi ilə danışdıqlarına baxmayaraq, özlərini Azərbaycan Türkləri, Bayat eli bilir. Nizami o türklərə olan təəssübünü beləcə görüntüləyir:

«ترکان عرب نشینشان نام خوش باشد ترک تازی اندام
در حلق آن بتان چون حور می‌رفت چنان که چشم بد دور.»

“Adları ərəblər arasında oturan türklər Ərəb əndamlı Türk nə də xoş olar

O bütlərin halqasında bir huri kimi elə gedirdi yaman gözdən iraq!”

Nizami Leyli-Məcnun mənzuməsində on iki yerdə “Türk”, “türkanə”, “türktaz” sözcüklərini işlədir.

(ardı gələn sayımızda)